# GÖYƏRÇİN

İSSN-0207-4710
2011-ci il
10

*E-mail: dergi@goyercin.com*
*www.goyercin.com*





Hekayə



Şeir



Nağıl

Nağıl vaxtı

# CANAVAR

*Dat nağılı*

Bir qoca kişi ilə bir qarı var idi. Onların beş quzusu, bir qulunu, bir iti, bir pişiyi var idi. Qoca ilə qarı quzuları otarmaq üçün balaca bir çoban tutmuşdular.

Bir dəfə çoban quzuları otaranda onun qarşısına bir canavar çıxdı. O soruşdu:

-Bu quzular sənindi?

-Mənimdi.

-Öz yeməyini mənə ver, yoxsa quzulardan birini yeyəcəyəm.

Balaca çoban öz yeməyini canavara vermədi. O isə acıqlanıb quzulardan birini yedi.

Bu söhbət hər gün təkrar olundu və ac qurd quzuların beşini də yedi.

Altıncı gün çoban qulunu otarmağa aparanda yenə də qurd gəlib çıxdı. Dedi ki, yemək dolu bağlamanı verməsən, qulunu yeyəcəyəm.

Canavar qulunu da yedi.

Çoban başına gələnləri danışdı. Sahibi isə onu qovdu. Dedi ki, quzuları və qulunu tapıb gətirməyəncə evə qayıtma.

Balaca çoban evdən çıxıb hara gəldi gedirdi. Heç quzuları axtarmırdı da. Çünki yaxşı bilirdi ki, onları canavar yeyib.

Yenə də qurd balaca çobanın qarşısına gəldi. Dedi ki, mənə yemək verməsən, səni yeyəcəyəm.

Çobanın qurda veriləsi bir şeyi qalmamışdı. Canavar onun özünü də uddu.

Bu minvalla canavar qoca kişini də, qarını da yedi.



İt öz sahiblərini axtarmağa getdi. O, qarşısına çıxan canavardan quzuları, qulunu, balaca çobanı, qoca qarını və kişini görüb-görmədiyini soruşdu.

Canavar dişlərini şaqqıldada-şaqqıldada öz qarnını göstərdi.

-Onların hamısı burdadı. Ancaq narahat olma, sənin üçün də bir yer tapılar.

Canavar iti də yedi. Heç kəsin evə qayıtmadığını görən pişik onları axtarmağa getdi. Canavara rast gələndə soruşdu ki, mənim sahiblərimi, onların quzularını, qulununu və itini, balaca çobanı görmədinmi?

Canavar dedi:

-Onların hamısı mənim qarnımdadı. Ancaq sənin üçün də bir yer taparam

Canavar bunu deyib, pişiyi də uddu.

Ancaq onun qarnı az qalırdı ki, partlasın. Pişik bir tərəfdən, it bir təfdən canavarın qarnını dişləməyə başladılar. Acgöz qurdun qarnı parça-parça oldu. Quzular da, at balası da, çoban da, qoca ilə qarı da, it də, pişik də azadlığı çıxdılar.

Onlar acgöz canavarı öldürüb evlərinə qayıtdılar.

*Tərcümə edib işləyəni*
*R.Y.Əliyev*

**Rəssam**
Aytən